ID: [redacted]

[redacted]

Azərbaycan Respublikası adından

**Q Ə T N A M Ə**

Bakı şəhəri İş № e-[redacted]/2025 [redacted]2025-ci il

**BAKI ŞƏHƏRİ YASAMAL RAYON MƏHKƏMƏSİ**

Hakim Sultanova-Məmmədova Ayşən Ramiz qızının sədrliyi,
Həsənova Aysel Zaur qızının katibliyi,
İddiaçının nümayəndəsi və vəkili [redacted] oğlunun,
Cavabdehlər [redacted] oğlu və [redacted] qızının nümayəndəsi və vəkili Əliyev Absələddin Murtuz oğlunun iştirakı ilə,

İddiaçı [redacted] qızının cavabdehlər [redacted] qızı, [redacted] oğlu, [redacted] oğlu və "[redacted]" MTK-ya qarşı "alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi, qeydiyyat şəhadətnaməsinin və çıxarışın ləğvi, əmlak bölgüsü və s" tələbinə dair mülki işə Bakı şəhəri Yasamal Rayon Məhkəmə binasında, açıq məhkəmə iclasında baxaraq, məhkəmə

**MÜƏYYƏN ETDİ:**

İddiaçı [redacted] qızı cavabdehlər [redacted] qızına, [redacted] oğluna, [redacted] oğluna və "[redacted]" MTK-ya qarşı "alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi, qeydiyyat şəhadətnaməsinin və çıxarışın ləğvi, əmlak bölgüsü və s" tələbinə dair iddia ərizəsi ilə 13 mart 2024-cü il tarixdə məhkəməyə müraciət edərək, iddiaçı [redacted] qızı ilə cavabdeh [redacted] oğlunun birgə nikahı dövründə birgə vəsait hesabına əldə edilmiş "[redacted]" MTK-nın Bakı şəhəri, Binəqədi rayonu, [redacted], [redacted], [redacted] saylı mənzilinə dair cavabdeh [redacted] oğlunun anası, iş üzrə digər cavabdeh [redacted] qızının adına saxta tərtib edilmiş və daşınmaz əmlakın dövlət reyestrində sonuncunun adına mülkiyyət hüququnun qeydə alınmasına əsas olmuş maliyyə arayışı və MTK-nın üzvlərinin Ümumi Yığıncağının qərarı (21.06.2023-cü il tarixli, [redacted] nömrəli) etibarsız hesab edilməsi və həmin cavabdehə daşınmaz əmlakın dövlət reyestrindən verilmiş mülkiyyət hüququna dair çıxarış ləğv edilməli, həmin mənzil üzərində iddiaçı [redacted] qızının 2/3 hissədə payının, eyni zamanda, tərəflərin birgə nikahı dövründə birgə vəsait hesabına əldə edilmiş buraxılış ili - 2005-ci i, Ban nömrəsi [redacted] olan BMW X5 minik markalı avtomobilə dair cavabdeh [redacted] oğlu ilə onun qohumu (bibisi qızının

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Ayşən Sultanova-Məmmədova
**Məhkəmənin adı:** Bakı Şəhəri Yasamal Rayon Məhkəməsi
**Sənədin elektron yüklənmə ünvanı:**
[redacted]

**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

[redacted]

S/N: 067

oğlu) olan digər cavabdeh [redacted] oğlu arasında bağlanmş alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi və sonuncunun adına verilmiş qeydiyyat şəhadətnaməsinin ləğv edilməsi, həmin avtomobil üzərində iddiaçı [redacted] qızının 2/3 hissədə payının müəyyən olunması barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

Daha sonra iddiaçı [redacted] qızının nümayəndəsi və vəkili [redacted] oğlu iddia tələbinin dəqiqləşdirilməsinə dair ərizə verərək, iddiaçı [redacted] qızı ilə cavabdeh [redacted] oğlunun birgə nikahı dövründə birgə vəsait hesabına əldə edilmiş "[redacted]" MTK-nın Bakı şəhəri, Binəqədi rayonu, [redacted], 3095- ci məhəllədə yerləşən 2-ci binasının 10-cu mərtəbəsində yerləşən ümumi sahəsi 103.4 kv.m olan 3 otaqlı [redacted] saylı mənzilinə dair cavabdeh [redacted] oğlunun anası, iş üzrə digər cavabdeh [redacted] qızının adına saxta tərtib edilmiş və daşınmaz əmlakın dövlət reyestrində sonuncunun adına mülkiyyət hüququnun qeydə alınmasına əsas olmuş maliyyə arayışı və MTK-nın üzvlərinin Ümumi Yığıncağının qərarının (21.06.2023-cü il tarixli, [redacted] nömrəli) etibarsız hesab edilməsi və həmin cavabdehə daşınmaz əmlakın dövlət reyestrindən verilmiş mülkiyyət hüququna dair çıxarışın ləğv edilməsi, eyni zamanda, tərəflərin birgə nikahı dövründə birgə vəsait hesabına əldə edilmiş buraxılış ili - 2005-ci il, Ban nömrəsi: [redacted] olan BMW X5 minik markalı avtomobilə dair cavabdeh [redacted] oğlu ilə onun qohumu (bibisi qızının oğlu) olan digər cavabdeh [redacted] oğlu arasında bağlanmş alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi və sonuncunun adına verilmiş qeydiyyat şəhadətnaməsinin ləğv edilməsi, həmin mənzil və avtomobilin dəyərinin 2/3 hissəsinin iddiaçı [redacted] qızına ödənilməsi, tərəflərin birgə nikahı dövründə əldə edilmiş cavabdeh [redacted] oğlunun adına açılmış bank hesablarında olan pul vəsaitinin, cavabdeh [redacted] oğlunun dövlət vergi orqanına (Bakı şəhəri Kiçik Sahibkarlıqla İş üzrə Baş İdarəsinə) təqdim etdiyi və dövlət vergi orqanı tərəfindən vergi ödəyicisinin gəliri kimi qəbul edilərək vergiyə cəlb olunan gəlirinin və cavabdeh [redacted] oğlunun vergi ödəyicisi kimi təsərrüfat subyektində ("[redacted]" Avtomobil Ehtiyat hissələrinin satışı mağazası, Bakı şəhəri, Babək pr. 42A/Qəbələ restoranının yaxınlığı) olan satılmamış mallarının ½ hissədə bölünməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Cavabdehlər [redacted] oğlu və [redacted] qızının nümayəndəsi və vəkili Əliyev Absələddin iddia ərizəsinə etiraz təqdim edərək, bildirdi ki, iddia tələbi əsassızdır. Mülki işə iddiaçı tərəfindən əlavə edilmiş sənədlərdən də görünür ki, "[redacted]" MTK-nın Bakı şəhəri, Binəqədi rayonu, [redacted], [redacted] binasının 10-cu mərtəbəsində yerləşən ümumi sahəsi 103.4 kv.m olan 3 otaqlı [redacted] saylı mənzilinə dair cavabdeh [redacted] oğlu ilə 22.05.2022-ci il tarixdə yaşayış sahəsi üçün müqavilə başlanmışdır. Mənzilin ümumi qiyməti 126148 (yüz iyirmi altı min yüz qırx səkkiz) manat məbləğində müəyyən edilmişdir. Müqaviləyə görə həmin tarixdə [redacted] oğlu tərəfindən 80000 (səksən min) manat (63.41%) ödənilmiş, qalan 46148 (qırx altı min yüz qırx səkkiz) manatın (26.59%) isə ödəniş cədvəlinə uyğun olaraq 36 ay müddətində ödənilməsi müəyyən edilmişdir. Həmin 46148 (qırx altı min yüz qırx səkkiz) manat isə cavabdehin anası [redacted] qızı tərəfindən ödənilmiş, bu səbəbdən də MTK tərəfindən 21.06.2023-cü il tarixdə onun adına maliyyə arayışı verilmiş və MTK üzvlüyünə qəbul edilərək sənədlərin DƏDRX Bakı şəhər ərazi idarəsində göndərilməsi qərara alınmışdır. Ona görə də, "cavabdeh [redacted] qızının adına tərtib edilmiş və daşınmaz əmlakın dövlət reyestrində sonuncunun adına mülkiyyət hüququnun qeydə alınmasına əsas olmuş maliyyə arayışı və MTK-nın üzvlərinin Ümumi Yığıncağının qərarının etibarsız hesab edilməsi və ona daşınmaz əmlakın dövlət

reyestrindən verilmiş mülkiyyət hüququna dair çıxarışın ləğv edilməsi və həmin mənzilin dəyərinin 2/3 hissəsinin iddiaçıya ödənilməsi" tələbi əsassızdır. Mülki işə iddiaçının özü tərəfindən əlavə edilmiş sənədlərdən görünür ki, birgə nikah dövründə əldə edilmiş buraxılış ili - 2005-ci il, Ban nömrəsi: [redacted] olan BMW X5 minik markalı avtomobil elə nikah dövündə də özgəninkiləşdirilmiş və əldə edilmiş vəsait ailənin ehtiyacları üçün xərclənmişdir. İddiaçı avtomobilin satılmasına etiraz etməmiş, onu bəyənmiş və əldə edilmiş vəsaitin ailəyə xərclənməsində iştirak etmiş və ondan bəhrələnmişdir. Hesab edir ki, ailədə mübahisə yarandıqdan və boşanmağa qərar verdikdən sonra iddiaçının belə bir tələblə çıxış etməsi, əsassız olaraq əlavə gəlir əldə etməklə, cavabdehdən "intiqam" almaq məqsədi daşıyır. Ona görə də, "tərəflərin birgə nikahı dövründə birgə vəsait hesabına əldə edilmiş buraxılış ili - 2005-ci il, Ban nömrəsi: [redacted] olan BMW X5 minik markalı avtomobilə dair cavabdeh [redacted] oğlu ilə digər cavabdeh [redacted] oğlu arasında bağlanmş alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi və sonuncunun adına verilmiş qeydiyyat şəhadətnaməsinin ləğv edilməsi, həmin mənzil və avtomobilin dəyərinin 2/3 hissəsinin iddiaçıya ödənilməsi" tələbi əsassızdır. İddiaçı ərizəsində həmçinin qeyd edir ki, [redacted] oğlu ilə iddiaçı [redacted] qızının birgə nikahı dövründə və hal-hazırda da, cavabdeh [redacted] oğlu sahibkarlıq fəaliyyəti ilə məşğul olur və həmin fəaliyyətdən gəlir əldə edir. Qeyd olunan gəlirin bir hissəsi, cavabdeh [redacted] oğlunun bank hesablarında olan pul vəsaitindən, bir hissəsi dövlət vergi orqanına təqdim etdiyi (2023-cü il üzrə) gəlir vergisi bəyannaməsində qeyd olunan gəlirdən ibarətdir. Buna əsaslanaraq, cavabdeh [redacted] oğlunun "dövlət vergi orqanına təqdim etdiyi və dövlət vergi orqanı tərəfindən vergi ödəyicisinin gəliri kimi qəbul edilərək vergiyə cəlb olunan gəlirinin" birgə gəlir kimi bölünməsini tələb edir. Əvvəla, nikah müddətində "gəlir vergisi bəyannaməsində qeyd olunan gəlir"in birgə gəlir kimi bölünməsi anlayışı ümumiyyətlər əsassızdır, çünki ər və arvadın birgə təsərrüfatı bölüşdürdükləri müddət ərzində əldə etdikləri gəlirləri ailə təsərrüfatına xərclədikləri ehtimal olunur və keçən müddət ərzindəki əldə edilmiş həmin gəlirlərin toplanılaraq hazırda mövcud olan aktiv kimi bölünməsi tələbi absurrddur və nə ailə, nə mülki hüquq nəzəriyyəsində, nə də ki, qanunvericilikdə belə bir tələbi əsaslandıracaq norma yoxdur. Yox, əgər iddiaçı əldə edilmiş və hazırda xərclənməmiş və aktiv kimi mövcud olan gəlirləri nəzərdə tutursa onda elə çıxır ki, bu, "gəlir vergisi bəyannaməsində qeyd olunan gəlir" yox, hansısa qeyri-müəyyən və yalnız iddiaçıya məlum olan aktivlərdir. O halda, iddiaçı tərəf məhkəməyə həmin aktivlərin harada olduğunu və dəyərini göstərməli, yəni mövcudluunu sübut etməlidir. Digər tərəfdən "vergiyə cəlb olunan gəlir" ifadəsi də səhvdir. Çünki o hələ gəlir deyil, onun gəlir sayılması üçün əvvəlcə vergi və digər xərclər həmin məbləğdən çıxılmalıdır. Bundan başqa, iddiaçı cavabdeh [redacted] oğlunun sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlir hesabına satışını həyata keçirdiyi, lakin hələ satılmamış anbarda olan təxmini dəyəri 200000 (iki yüz min) manatdan artıq olan malların da mövcud olduğunu iddia edir. Əvvəlcə qeyd edilməlidir ki, ümumiyyətlə, ticarət fəaliyyəti zamanı gəlir hesabına satış yox, əksinə satış hesabına gəlir əldə edilir. Ona görə də, iddiaçının qeyd etdiyi malların satışının sahibkarlıq fəaliyyətindən əldə edilmiş gəlir hesabına həyata keçirilməsi fikri absurddur. Əksinə, malların satışı hesabına gəlir etmək mümkündür. İddiaçının qeyd etdiyi mağazada isə ümumiyyətlə gəlir hesabına əldə edilmiş mallar mövcud deyil. Mağazaya mallar tədarükçülər tərəfindən "nisyə" olaraq verilir, malların dəyəri (tədarükçünün borcu) satışdan sonra ödənilir. Azərbaycanda əsas etibarilə satış mağazalarında işgüzar münasibətlər bu şəkildə qurulmuşdur. Beləliklə, qeyd edilməlidir ki, əvvəla iddiaçının qeyd etdiyi kimi, cavabdeh [redacted] oğlunun sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlir hesabına satışını həyata keçirdiyi, lakin hələ satılmamış anbarda olan təxmini dəyəri 200000 (iki yüz min) manatdan artıq olan mallar mövcud deyildir,

hətta 1 manat dəyərində mal mövcud olsa belə həmin mal cavabdehin sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlir hesabına əldə edilməmişdir. Ona görə də, iddia olunan malların birgə nikah dövründə əldə edilmiş vəsait hesabına alınması iddiası həqiqətə uyğun deyil və birgə əmlak kimi bölünmə predmeti ola bilməz. Dolayısıyla, iddiaçının iddia tələbi həmin hissədə də (tərəflərin birgə nikahı dövründə əldə edilmiş cavabdeh [redacted] oğlunun adına açılmış bank hesablarında olan pul vəsaitinin, cavabdeh [redacted] oğlunun dövlət vergi təqdim etdiyi və dövlət vergi orqanı tərəfindən vergi ödəyicisinin gəliri kimi qəbul edilərək vergiyə cəlb olunan gəlirinin və cavabdeh [redacted] oğlunun vergi ödəyicisi kimi təsərrüfat subyektində olan satılmamış mallarının % hissədə bölünməsi) tamamilə əsassızdır. İddia ərizəsində payların bərabər deyil, 2/3 hissəyə bölünməsi tələbini görünür. Deməli, iddiaçı hüququ olmayan əmlaka iddia etməklə kifayətlənməmiş, həmçinin həmin əmlakın əsassız olaraq öz xeyrinə qeyri-bərabər bölünməsini tələb etməkdən də çəkinməmişdir. Ən acınacaqlısı isə odur ki, iddiaçı payların qeyri-bərabər bölünməsinə dair qanunsuz tələb irəli sürməsinə baxmayaraq, bunu heç olmasa formal olaraq da əsaslandırmağa cəhd göstərməmişdir. Odur ki, iddiaçı [redacted] qızının iddia tələbinin əsassız olduğu üçün rədd edilməsi barədə qətnamə qəbul edilməsini məhkəmədən xahiş etmişdir.

Məhkəmə iclasında iddiaçının nümayəndəsi və vəkili Orucov Söhrab iddia ərizəsinin məzmununa uyğun izahat verərək, onun təmin edilməsinə dair qətnamə çıxarılmasını məhkəmədən xahiş etmişdir. Əlavə olaraq bildirmişdir ki, cavabdeh tərəf bildirir ki, tərəflər 2024-cü ilin sentyabr ayınadək birlikdə yaşamış və birgə təsərrüfat aparmışlar. Lakin məhkəməyə təqdim etdiyi mediasiya arayışından da görünür ki, nikahın pozulması ilə bağlı mediasiya təklifi 2023-cü ilin oktyabr ayında olmuş və həmin dövrdən tərəflər birgə yaşasalar da, birgə təsərrüfat aparmamışlar, ailə münasibətləri mövcud olmamışdır. Həmçinin qeyd edir ki, onlar mal qalığının bölünməsi ilə bağlı iddia qaldırıblar, cavabdeh isə öhdəliklərinin olmasından və onların bölünməsindən bəhs edir. Halbuki öhdəliklərin olmasına dair sübut (üzləşmə aktını və s.) təqdim etməmiş, öhdəliklərin bölünməsi ilə bağlı qarşılıqlı iddia da qaldırmamışlar. [redacted] oğlu birgə nikah dövründə tərəflərin birgə vəsaiti hesabına əldə edilmiş daşınar və daşınmaz əmlakların bölünə bilməməsi və iddiaçını həmin əmlaklardakı paydan məhrum etmək məqsədi ilə yalan əqdlər əsasında həmin əmlakların öz adından çıxarılıb,anası və digər qohumunun adına sənədləşdirilməsinə nail olmuşdur. Beləliklə, sənədlər saxtalaşdırılmış və dələduzluq edilmişdir. Odur ki, iddia tələbinin təmin edilməsi ilə yanaşı cavabdehlər barəsində onların qanunsuz əməllərinə qiymət verilməsi üçün xüsusi qərardad çıxarılmasını xahiş etmişdir.

Məhkəmə iclasında iddiaçı [redacted] qızı iddia tələbini müdafiə edərək tələbin məzmununa uyğun izahat vermiş, verilən suallara cavab olaraq bildirmişdir ki, birgə nikah dövründə 8 il həmin mənzildə cavabdehlə birlikdə yaşamışdılar. Hal-hazıradək uşaqları ilə birgə mübahisə predmeti olan mənzildə yaşayır. Təxminən 3-4 aydır (2024-cü ilin sentyabr ayından etibarən) faktiki olaraq ayrı yaşayırlar. Birgə nikahları dövründə ailənin maddi ehtiyacları cavabdeh Cavid Məmmədov tərəfindən qarşılanmışdır. Cavabdeh avtomobili 2023-cü ilin sentyabr ayında satdığını desə də, 2024-cü ilin aprel ayında onlar məhkəməyə müraciət etdikdən sonra cavabdehə bildiriş getdiyi üçün gedib avtomobili satmışdır. O vaxta qədər isə nömrəsini dəyişərək, avtomobili faktiki özü idarə etmişdir. Qeyd edilənləri nəzərə alaraq iddia tələbinin təmin edilməsini xahiş etmişdir.

Məhkəmə iclasında cavabdehlər [redacted] oğlu və [redacted] qızının nümayəndəsi və vəkili Əliyev Absələddin iddia tələbini qəbul etməyərək, bildirdi ki, iddiaçı iddia tələbində mübahisə edilən mənzilin dəyərinin 2/3 hissəsinin ona ödənilməsi tələbini qoymuşdur. Əvvəla, Azərbaycan Respublikası Ailə Məcəlləsinin 37.1-ci maddəsinə əsasən ər-arvad arasındakı müqavilədə başqa hal nəzərdə

tutulmayıbsa, onların ümumi əmlakının bölünməsi zamanı bu əmlakdakı payları bərabər hesab edilir. Digər tərəfdən, iddiaçının iddia ərizəsində ifadə olunan tələbinin mahiyyətinə görə onun çatmaq istədiyi hüquqi nəticə mübahisəli mənzilin dəyərinin bir hissəsinin ona ödənilməsini təşkil edir. Ona görə də hesab edirlik ki, "daşınmaz əmlakın dövlət reyestrində [redacted] qızının adına mülkiyyət hüququnun qeydə alınmasına əsas olmuş maliyyə arayışı və MTK-nın üzvlərinin Ümumi Yığıncağının qərarının (21.06.2023-cü il tarixli, [redacted] nömrəli) etibarsız hesab edilməsi və [redacted] qızına daşınmaz əmlakın dövlət reyestrindən verilmiş mülkiyyət hüququna dair çıxarışın ləğv edilməsi, eyni zamanda, buraxılış ili - 2005-ci il, Ban nömrəsi: [redacted] olan BMW X5 minik markalı avtomobilə dair cavabdeh [redacted] oğlu ilə digər cavabdeh [redacted] oğlu arasında bağlanmş alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsinə əsas yoxdur. Çünki, iddiaçının çatmaq istədiyi hüquqi nəticəyə, yəni mübahisəli mənzilin dəyərinin hissəsinin iddiaçıya ödənilməsi üçün qeyd olunan müqaviləririn ləğv olunmasına ehtiyac yoxdur. İddia tələbini həmin hissələrdə icra etmək mümkündür və iddiaçının çatmaq istədiyi hüquqi nəticə puldur. Tərəflər arasındakı nikah Qusar Rayon Məhkəməsinin 09.04.2024-cü il tarixli, [redacted] saylı qətnaməsi ilə pozulmuşdur. Cavabdeh [redacted] oğlu isə 2024-cü ilin sentyabr ayına kimi iddiaçı ilə birlikdə mübahisəli Bakı şəhəri, Bınəqədi rayonu, [redacted], [redacted] məhəllədə yerləşən [redacted] saylı mənzildə yaşamış, iddiaçı ilə birgə təsərrüfatı bölüşdürmüşlər. Bu faktı iddiaçının özü 6 iyun 2024-cü il tarixdə keçirilən hazırlıq iclası zamanı hakimin suallarına cavab verərkən etiraf edərək təsdiq etmişdir. Həmin faktı iddiaçı mənim şullarıma cavab verərkən 03.12.2024-cu il tarixli hazırlıq iclası zamanı və eyni zamanda 19.12.2024-cü il tarixdə keçirilən məhkəmə baxış iclası zamanı hakimin sualına cavab verərək etiraf edilmişdir. İddia ərizəsində qeyd olunan BMW X5 minik markalı minik maşını, cavabdeh tərəfindən faktiki nikan müddətində, iddiaçının özünün məhkəməyə təqdim etdiyi sənədlərə görə 30.09.2023-cü il tarixdə satılmışdır. Avtomobilin satışından əldə olunan gəlir iddiaçının məhkəmə iclasında söylədiklərinə də uyğun olaraq ailə təsərrüfatına xərclənmişdir. Ona görə də, həmin avtomobilə münasibətdə alqı-satqı müqaviləsinin etibarsız hesab edilməsi və verilmiş qeydiyyat şəhadətnaməsinin ləğv edilməsi, eləcə də avtomobilin dəyərinin yarısının ödənilməsi tələbi əsasızdır. Digər tərəfdən, avtomobilin hansı qiymətə satılması ilə bağlı iddiaçı tərəfindən məhkəməyə heç bir sübut təqdim olunmamışdır. Bunun əvəzinə hər hansı qiymətləndirmə aparılmadan avtomobilin dəyərinin yarısının ödənilməsi tələb etmişdir. Halbuki, satılmış əşyanın dəyərinin ödənilməsi tələbi bu baxımdan da əsassızdır. Məhkəmə araşdırması, eləcə də məhkəməyə təqdim edilmiş sübutlardan görünür ki, iddaçının istinad etdiyi və cavabdeh [redacted] oğlunun vergiyə cəlb olunan gəlirinin və vergi ödəyicisi kimi təsərrüfat subyektində olan satılmamış mallarının ½ hissədə bölünməsi barədə tələbi də əsassızdır. Belə ki, əvvəla təqdim etdikləri sübutlardan görünür ki, cavabdehin hesabat dövrünün sonuna qeyd olunmuş 123,789.[redacted] manat mal qalığı, onun 36,931.92 manat kreditor borcları *(*bank kreditləri 3,500.00 manat, alınmış avanslar 171.00 manat, sair kredit borcları 33,260.92 manat*)* və 80,198.78 manat digər öhdəlikləri *(*cəmi 117,130.70 manat*)* hesabına əldə olunmuşdur. Deməli, həmin mallar heç bir halda cavabdehin gəliri hesab oluna bilməz. Ona görə də, iddiaçı tərəfindən həmin malların birgə nikah dövründə qazanılmış gəlir hesabına əldə edilməsinə istidad etmək əsassızdır və həmin malların dəyəri bölgü predmeti ola bilməz. Hesabat dövrünün sonuna cavabdehin gəliri isə 6,766.78 manat təşkil etmişdir. Digər tərəfdən isə, yuxarıda artıq qeyd etdikləri kimi, 2023-cü ildə tərəflər faktiki nikahda olmuşlar, cavabdehin kommersiya fəaliyyəti həmin dövrü əhatə etmiş və əldə edilmiş gəlir (6,766.78 manat) birgə ailə təsərrüfatına xərclənmişdir. Bu fakt, məhkəmə iclaslarında iddiaçı tərəfindən dəfələrlə etiraf edilmişdir. Odur ki, o, iddia tələbinin rədd olunmasına dair qətnamə çıxarılmasını məhkəmədən xahiş etmişdir.

Məhkəmə iclasının vaxtı və yeri barədə lazimi qaydada məlumatlandırılmış digər cavabdehlər (nümayəndələri) məhkəmə iclasına gəlməmişdirlər. Məhkəməyə gəlməyən tərəflərin (nümayəndələrinin) iştirakı olmadan işə baxılmasını mümkün hesab etmişdir.

Məhkəmə proses iştirakçılarının izahatını dinləyib, iş materiallarında olan sənədləri nəzərdən keçirib, sübutlara obyektiv, qərəzsiz, hərtərəfli və tam baxdıqdan sonra hesab edir ki, iddia qismən təmin edilməlidir.

Belə ki, iş materiallarında olan:

Qax rayon İlisu İcra Nümayəndəliyi Azərbaycan Respublikası tərəfindən verilmiş AZ-T seriyalı, [redacted] saylı Nikah haqqında şəhadətnamədən görünür ki, [redacted] oğlu ilə [redacted] qızı 05 noyabr 2015-ci il tarixdə rəsmi nikaha daxil olmuşdular. Nikah bağladıqdan sonra ərə Məmmədov, arvada Məmmədova soyadı verilmişdir.

"[redacted]" MTK ilə [redacted] oğlu arasında bağlanmış 22 may 2020-ci il tarixli 234 saylı müqaviləyə əsasən "İcraçı" Bakı şəhəri, Binəqədi rayonu, [redacted] qəs., [redacted] məhəllə, 16 mərtəbəli, 7 bloklu binanın 2-ci blokunda, 10-cu mərtəbəsində yerləşən ümumi sahəsi 103,4 kv.m olan [redacted] saylı 3 otaqlı mənzili "Sifarişçi"yə satmağı, "Sifarişçi" isə bu müqavilə ilə nəzərdə tutulmuş qaydada tərəflər arasında razılaşdırılmış şərtlər daxilində mənzilin dəyərini ödəməyi öhdəsinə götürmüşdür. Həmin müqavilənin 2.1-ci bəndinə əsasən müqavilənin 1.1-ci bəndində göstərilən 3 otaqlı, ümumi satış 103.4 kv.m olan mənzilin hər kv.m-nın qiyməti tərəflərin razılaşması ilə 1220 manat mənzilin ümumi qiyməti 126.148 manat məbləğində müəyyən edilmişdir. Müqavilənin 2.2-ci bəndinə əsasən "Sifarişçi" mənzilin dəyərinin 80.000 manatını 63.41 müqavilə bağlandığı gün, qalan 46.148 manatını isə bu müqavilənin ayrılma tərkib hissəsi olan ödəniş cədvəli əsasında 36 ay müddətinə ödəyir.

"[redacted]" MTK-nın 22 may 2020-ci il tarixli kassa mədaxil orderinə əsasən [redacted] oğlu Bakı şəhəri, Binəqədi rayonu, [redacted] qəs., [redacted] məhəllə, 16 mərtəbəli, 7 bloklu binanın 2-ci blokunda, 10-cu mərtəbəsində yerləşən ümumi sahəsi 103,4 kv.m olan [redacted] saylı 3 otaqlı mənzil üçün 80.000 manat ödəniş edilmişdir.

"[redacted]" MTK tərəfindən verilmiş 30 may 2023-cü il tarixli Maliyyə arayışına əsasən [redacted] oğlu "[redacted]" MTK-nin Bakı şəhəri, Binəqədi rayonu, [redacted] qəs., [redacted] məhəllə, 16 mərtəbəli, 7 bloklu binanın 2-ci blokunda, 10-cu mərtəbəsində yerləşən ümumi sahəsi 103,4 kv.m olan [redacted] saylı 3 otaqlı mənzilin məbləğini ödəmişdir və kooperativə borcu yoxdur.

[redacted] oğlu tərəfindən "[redacted]" MTK-ya ünvanlanmış 25 iyun 2023-cü il tarixli ərizədən görünür ki, C.Məmmədov Bakı şəhəri, Binəqədi rayonu, [redacted] qəs., [redacted] məhəllə, 16 mərtəbəli, 7 bloklu binanın 2-ci blokunda, 10-cu mərtəbəsində yerləşən ümumi sahəsi 103,4 kv.m olan [redacted] saylı 3 otaqlı mənzilin çıxarışını əldə etmək üçün [redacted] qızının adına rəsmiləşdirilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

"[redacted]" MTK tərəfindən verilmiş 21 iyun 2023-cü il tarixli Maliyyə arayışına əsasən [redacted] qızı "[redacted]" MTK-nin Bakı şəhəri, Binəqədi rayonu, [redacted] qəs., [redacted] məhəllə, 16 mərtəbəli, 7 bloklu binanın 2-ci blokunda, 10-cu mərtəbəsində yerləşən ümumi sahəsi 103,4 kv.m olan [redacted] saylı 3 otaqlı mənzilin məbləğini ödəmişdir və kooperativə borcu yoxdur.

Qusar Rayon Məhkəməsinin [redacted] saylı, 09.04.2024-cü il tarixli qətnaməsi ilə iddiaçı [redacted] oğlunun cavabdeh [redacted] qızına qarşı "nikahın pozulması, uşağın ananın yanında saxlanılması və aliment" tələbi ilə iddia təmin edilərək, [redacted] oğlu ilə [redacted] qızı arasında Qax rayonu İlisu İcra Nümayəndəliyində 05 noyabr 2015-ci il tarixli 08 saylı akt qeyd ilə bağlanmış nikahın pozulması, 26 iyun 2021-ci il təvəllüdlü [redacted] oğlunun

anası [redacted] qızının himayəsində saxlanılması və yaşayış yeri kimi [redacted] qızının yeri müəyyən olunması, 20 yanvar 1988-ci ildə Qax rayonu İlisu kəndində anadan olmuş, həmin kənddə qeydiyyatda olmaqla faktiki olaraq, Bakı şəhəri, Binəqədi rayonu [redacted] 16 mərtəbəli 7 bloklu 2-i binanın 10-cu mərtəbəsi [redacted] nömrəli mənzildə yaşayan [redacted] oğlundan [redacted] qızının xeyrinə 26 iyun 2021-ci il təvəllüdlü [redacted] oğlunun yetkinlik yaşına çatanadək saxlanılması üçün hər ay aylıq qazancının (başqa gəlirlərinin) ¼ hissəsi miqdarında alimentin tutulması, 26 iyun 2021-ci il təvəllüdlü [redacted] oğlunun 3 (üç) yaşı tamam olanadək [redacted] oğlundan [redacted] qızının xeyrinə hər ay sabit pul məbləğində 250 (iki yüz əlli) manat miqdarında alimentin tutulması qət edilmişdir.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polis İdarəsi tərəfindən sorğuya cavab 30 dekabr 2023-cü il tarixli məktubundan görünür ki, DİN Baş Dövlət Yol Polis İdarəsi Qeydiyyat-imtahan İdarəsinin komputer uçot bazasına əsasən hal-hazırda 20.01.1988-ci il təvəllüdlü [redacted] oğlunun adında nəqliyyat vasitəsi qeydiyyatda yoxdur, qeydiyyatdan çıxarılaraq, özgəninkiləşdirilən nəqliyyat vasitələri barədə məlumatların komputer çıxarışına əsasən C.Məmmədovun adına olan BMW X-5 minik markalı, [redacted]dövlət qeydiyyat nişanlı avtomobil 30 sentyabr 2023-cü il tarixli alqı-satqı müqaviləsi əsasında satılmışdır.

AR İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsi 1 saylı Bakı Ərazi İdarəsi tərəfindən verilmiş sorğuya cavab 16 yanvar 2024-cü il tarixli məktubundan görünür ki, Bakı şəhəri, Binəqədi rayonu, H.Hüseynov küçəsi, ev 37 A, mənzil [redacted] ünvanı [redacted] qızının adına "[redacted]" MTK üzvlərinin ümumi yığıncağının [redacted] nömrəli 21.06.2023-cü il tarixli protokolundan çıxarışa və eyni tarixli maliyyə arayışına əsasən 24.07.2023-cü il tarixdə qeydiyyata alınmışdır və hazırda mülkiyyətindədir. Abşeron rayonu, Masazır kəndi, Əliağa Vahid küçəsi, ev 1, mənzil 21 ünvanı üzərində [redacted] oğlunun adına mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində 14.01.2020-ci il tarixdə 1619033874 qeydiyyat, [redacted] reyestr nömrəsi ilə qeydiyyata ("Nahid-86" MTK-nin 23.12.2019-cu il tarixli ümumi iclasının 01255 nömrəli protokolundan çıxarış və eyni tarixli maliyyə arayışı əsasında) alınmışdır. Abşeron rayonu 1 saylı notariat kontoru tərəfindən təsdiq edilmiş 19.05.2020-ci il tarixli 4Ə-729 reyestr nömrəli daşınmaz əmlakın alqı-satqı müqaviləsinə əsasən mənzil Osmanov Mübariz Ərzuman oğlunun adına özgəninkiləşdirilmişdir. [redacted] oğlunun adına qeyd olunan dövrlər ərzində qeydiyyata alınmış daşınmaz əmlak aşkar edilməmişdir.

"Paşa Bank" ASC-nın sorğuya cavab 20 iyun 2024-cü il tarixli məktubundan görünür ki, Azərbaycan Respublikası "Banklar haqqında" Qanunun 41.2-ci maddəsinə əsasən və məktuba əlavə olunan məhkəmə qərarının (icra sənədinin) icrasının nəticəsi olaraq bildirilir ki, qərarda sorğulanan şəxsin adına "PAŞA Bank" ASC-də 14.06.2024-cü il tarixinə heç bir bank hesabı mövcud deyildir.

"Azərbaycan Beynəlxalq Bankı" ASC-nın sorğuya cavab 24 iyun 2024-cü il tarixli məktubundan görünür ki, [redacted] oğlunun adına "ABB" ASC-də 17.04.2012-ci il tarixdə açılmış bank hesabı 18.12.2015-ci il tarixdə bağlanmış və Bankın əməliyyat sistemində 2023-cü il ərzində Cavid Məmədova məxsus digər bank hesabları aşkar edilməmişdir.

"Azər-Türk Bank" ASC-nın sorğuya cavab 27 iyun 2024-cü il tarixli məktubundan görünür ki, [redacted] oğlunun adına Bankda hər hansı bank hesablarının olmasına və hər hansı bir maliyyə əməliyyatlarının aparılmasına dair məlumatlar mövcud deyildir.

“Kapital Bank” ASC-nın sorğuya cavab 30 iyun 2024-cü il tarixli məktubundan görünür ki, 01.01.2023-31.12.2023-cü il dövr üzrə [redacted] oğlunun adına əmanət hesabı aşkar edilməmişdir.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin sorğuya cavab 28 iyun 2024-cü il tarixli məktubundan görünür ki, dövlət reyestrində [redacted] oğlunun (VÖEN: [redacted]) hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs qismində uçotda olması barədə məlumat mövcuddur. Reyestrdə [redacted] oğlunun hər hansı hüquqi şəxsin rəhbəri və təsisçisi olması barədə məlumat mövcud deyildir. Uçot baza məlumatlarına əsasən [redacted] oğlu tərəfindən təqdim edilmiş sadələşdirilmiş vergi bəyannamələrində 2023-cü ilin 1-ci rübü üzrə 0,0 manat, 2-ci rübü üzrə 22 961,0 manat, 3-cü rübü üzrə 30 162,5 manat, 4-cü rübü üzrə 31 749,0 manat dövriyyə məbləği əks etdirilmişdir. 2023-cü ilin 4-cü rübü üzrə təqdim edilmiş sadələşdirilmiş vergi bəyannamə məlumatına əsasən hesabat dövrünün sonuna 123 789,44 manat mal qalığı qeyd edilmişdir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin:

337.1-ci maddəsinə əsasən bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər.

225.1-ci maddəsinə əsasən, ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah kontraktında və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi birgə mülkiyyətidir.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin:

32.1-ci maddəsinə əsasən nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır.

32.2-ci maddəsinə əsasən ər-arvadın ümumi birgə mülkiyyətinə onların hər birinin əmək, sahibkarlıq və intellektual fəaliyyəti nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, eləcə də xüsusi təyinatı olmayan digər pul ödəmələri (xəsarət, sağlamlığın bu və ya digər formada pozulması nəticəsində əmək qabiliyyətinin itirilməsinə görə ödənilən məbləğ, maddi yardımın məbləği və s.), ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən daşınar və daşınmaz əşyalar, qiymətli kağızlar, kredit idarələrinə və s. kommersiya təşkilatlarına qoyulmuş paylar, əmanətlər, kapitaldan olan paylar və əmlakın ər-arvaddan kimin adına əldə olunmasından, yaxud əmanətin kimin adına və ya kim tərəfindən qoyulmasından asılı olmayaraq nikah dövründə ər-arvadın qazandığı hər hansı sair əmlak daxildir.

36.3-cü maddəsinə əsasən, mübahisə olduqda, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir.

37.1-ci maddəsinə əsasən, ər-arvad arasındakı müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, onların ümumi əmlakının bölünməsi zamanı bu əmlakdakı payları bərabər hesab edilir.

Beləliklə, məhkəmə araşdırması zamanı müəyyən edilmişdir ki, tərəflər ([redacted] qızı və [redacted] oğlu) 05 noyabr 2015-ci il tarixdə rəsmi nikaha daxil olaraq ailə həyatı qurmuşdular. Birgə nikahdan 26 iyun 2021-ci il təvəllüdlü [redacted] oğlu adlı övladları anadan olmuşdur. Qusar Rayon Məhkəməsinin [redacted] saylı, 09.04.2024-cü il tarixli qətnaməsi ilə tərəflər arasındakı nikah pozulmaqla, uşağın ananın himayəsində saxlanılması, o cümlədən alimentin tutulması qət edilmişdir. Hazırda iddiaçı müqavilənin etibarsız hesab edilərək, çıxarışların ləğvi və əmlak bölgüsü tələbi ilə məhkəməyə müraciət etmişdir.

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Ayşən Sultanova-Məmmədova
**Məhkəmənin adı:** Bakı Şəhəri Yasamal Rayon Məhkəməsi
**Sənədin elektron yüklənmə ünvanı:**
[redacted]

[redacted]

**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

S/N: 067

Məhkəmə tərəfindən müəyyən edilmişdir ki, "[redacted]" MTK ilə [redacted] oğlu arasında bağlanmış 22 may 2020-ci il tarixli, 234 saylı müqaviləyə əsasən "İcraçı" Bakı şəhəri, Binəqədi rayonu, [redacted] qəs., [redacted] məhəllə, 16 mərtəbəli, 7 bloklu binanın 2-ci blokunda, 10-cu mərtəbəsində yerləşən ümumi sahəsi 103,4 kv.m olan [redacted] saylı 3 otaqlı mənzili "Sifarişçi"yə satmağı, "Sifarişçi" isə bu müqavilə ilə nəzərdə tutulmuş qaydada tərəflər arasında razılaşdırılmış şərtlər daxilində mənzilin dəyərini ödəməyi öhdəsinə götürmüşdür. Mənzilin ümumi qiyməti 126.148 manat məbləğində pul (iş materiallarında olan "[redacted]" MTK-nın 30 may 2023-cü il tarixli Maliyyə arayışından göründüyü kimi) cavabdeh Cavid Məmmədov tərəfindən tamamilə ödənilmişdir. C.Məmmədov 25 iyun 2023-cü il tarixdə müvafiq mənzilin anası-Ayşat Məmmədovanın adına rəsmiləşdirilməsinə dair ərizə ilə "[redacted]" MTK-ya müraciət etmişdir.

Məhkəmə qeyd edir ki, qeyd edilən mənzil sonradan cavabdehin anasının adına rəsmiləşdirilsə də, faktiki olaraq, birgə nikah dövründə əldə olunmuş əmlakdır. Mənzilin cavabdehin anasının adına rəsmiləşdirilməsi ilə bağlı isə iddiaçının razılığı olmamışdır. Belə olduğu halda, məhkəmə hesab edir ki, cavabdeh [redacted] oğlundan müvafiq mənzilin dəyərinin yarısı, yəni 63.074 manat (altmış üç manat yetmiş dörd qəpik) məbləğində pul tutularaq, iddiaçı [redacted] qızına ödənilməlidir.

"Ər-arvadın ümumi əmlakının bölünməsi ilə bağlı mübahisələrdə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 12 mart 2024-cü il tarixli 1/2024 saylı qərarının 7.4-cü bəndinə əsasən, reyestrdə qeydə alınmalı olan daşınar əşyalara münasibətdə sərəncam əqdi bağlanarkən əqdin tərəfi olmayan ərin (arvadın) razılığına dair qanuni ehtimal nəzərdə tutulmadığı üçün mübahisə halında razılığın olduğunu sübutetmə vəzifəsi belə razılığın olduğu əsası ilə iddiaya etiraz edən tərəfin üzərinə düşür. Ailə Məcəlləsinin 33-cü maddəsində razılığın verilməsi üçün məcburi forma nəzərdə tutulmamışdır. Eyni zamanda Mülki Məcəllənin 355.2-ci maddəsinə əsasən, razılıq üçün müəyyənləşdirilmiş əqd formasına riayət edilməsi tələb olunmur. Odur ki, ərin (arvadın) bağladığı müqavilədə tərəf olmayan ərin (arvadın) razılığı istənilən formada (şifahi, sadə yazılı, notarial, konkret konkludent hərəkətlərdə və s.) ifadə oluna bilər.

Həmin qərarın 7.7-ci bəndinə əsasən, reyestrdə qeydə alınmalı olub-olmamasından asılı olmayaraq, daşınar əşyalara sərəncam verilərkən əqdin tərəfi olmayan ərin (arvadın) razılığının alınmaması o halda əqdin etibarsızlığına səbəb olur ki, əldə edən üçüncü şəxs vicdanlı olmasın. Belə ki, ər-arvaddan biri digərinin razılığı olmadan onların ümumi əmlakı üzərində sərəncam əqdi bağlamışsa və əqdin iştirakçısı olan digər tərəf bu cür razılığın olmadığını bilirdisə və ya bilməli idisə, əqd bağlanmasına razılığı olmayan ər (arvad) tərəfindən mübahisələndirilə bilər (Ailə Məcəlləsinin 33.3-cü və Mülki Məcəllənin 222.3-cü maddələri). Əldə edənin müvafiq razılığın alınmadığını bildiyi və ya bilməli olduğunu sübuta yetirmək vəzifəsi isə bunu iddia edən tərəfin üzərinə düşür. Bu qayda daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış əşya hüquqları istisna olmaqla, ər-arvadın ümumi əmlakına daxil olan digər hüquqlara (yaşayış binasının tərkib hissəsi üzərində pay hüququ, icarə hüququ və s.) onlardan birinin razılığı olmadan sərəncam verilməsi ilə bağlı mübahisələrə eynilə tətbiq olunur.

"Qərarın 7.19-cu bəndində göstərilir ki, iddiaçı ər (arvad) cavabdeh arvadın (ərin) bağladığı etibarsız əqd əsasında üçüncü şəxsin adına rəsmiləşdirilmiş əşyanın özünü deyil, onun payına düşən dəyərini arvaddan (ərdən) tələb etdikdə isə üçüncü şəxsə qarşı yönəlmiş iddia tələbi olmadığından məhkəmə öz təşəbbüsü ilə əqdin etibarsızlığını nəzərə alaraq, əşyanın iddiaçıya verilməsi barədə qərar çıxara bilməz. Çünki üçüncü şəxsə qarşı mülki prosessual qanunvericiliyə uyğun qaydada irəli sürülmüş tələb olmadan onun əşya hüquqlarına dair məsələnin məhkəmə tərəfindən yoxlanılması və həll edilməsi yolverilməzdir. Bu halda üçüncü şəxsin adına rəsmiləşdirilmiş predmetin bazar dəyərinin iddiaçının payına



**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

uyğun olan hissəsinin pul şəklində cavabdeh ərdən (arvaddan) tutulması mümkündür. Çünki həmin pul vəsaitinə olan hüquq da ərin (arvadın) əmlakının qanuni rejimindən irəli gəlir. Məhkəmənin cavabdeh ərə (arvada) qarşı yönəlmiş pul tələbini göstərilən əsasla təmin etməsi ümumi əmlaka olan hüququn pul şəklində kompensasiyasıdır.

Habelə, məhkəmə tərəfindən ayrı-ayrı banklara verilmiş sorğular nəticəsində cavabdehin adına hər hansı bir bank hesablarının olmadığı müəyyən edilmişdir.

Məhkəmə onu da qeyd edir ki, mübahisə predmetini təşkil edən BMW X-5 minik markalı, [redacted] dövlət qeydiyyat nişanlı avtomobilin alqısı, habelə satqısı birgə nikah dövründə olmuşdur. Cavabdeh tərəf iddia edir ki, avtomobilin satışından əldə edilmiş vəsait ailə xərclərinə sərf edilmişdir. İddiaçı tərəf bunu təkzib edən sübut məhkəməyə təqdim edə bilməmişdir.

Mülki prosessual qanunvericiliyə görə hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

İddiaçı həmçinin cavabdeh Məmmədov Cavidin vergiyə cəlb olunan gəlirinin və vergi ödəyicisi kimi təsərrüfat subyektində olan satılmamış mallarının ½ hissədə bölünməsi barədə tələbi də irəli sürmüşdür. Halbuki, iş materiallarından görünür ki, 123,789.44 manat mal qalığı (bank kreditləri, avanslar və s.) hesabına əldə olunmuşdur. Belə olduğu halda, iddia bu hissədə də təmin edilə bilməz.

Belə olduğu halda, məhkəmə hesab edir ki, iddia tələbi qismən təmin edilməli, cavabdeh [redacted] oğlundan 63.074 manat (altmış üç manat yetmiş dörd qəpik) məbləğində pul tutularaq, iddiaçı [redacted] qızına ödənilməli; iddia tələbi qalan hissədə təmin edilməməlidir.

Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 119.1-ci maddəsinə görə məhkəmə xərcləri ödənilmiş tələblərin məbləğinə münasib olaraq işdə iştirak edən şəxslərə aid edilir. Ödənilmiş dövlət rüsumu iddiaçıya aid edilməlidir.

Şərh olunanlara əsasən və Azərbaycan Respublikası MPM-in 119, 216-220, 227, 233, 357, 360, 362-ci maddələrini rəhbər tutaraq, məhkəmə

**QƏT ETDİ**:

İddia tələbi qismən təmin edilsin.

Cavabdeh [redacted] oğlundan 63.074 manat (altmış üç manat yetmiş dörd qəpik) məbləğində pul tutularaq, iddiaçı [redacted] qızına ödənilsin.

İddia tələbi qalan hissədə təmin olunmasın.

Ödənilmiş dövlət rüsumu iddiaçıya aid edilsin.

Qətnamədən, qətnamə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən bir ay müddətində "Elektron məhkəmə" informasiya sistemində yaradılan elektron kabinetdən Bakı şəhəri Yasamal Rayon Məhkəməsi vasitəsilə Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasına apellyasiya şikayəti verilə bilər.

**Sədrlik edən: Ayşən Sultanova-Məmmədova**

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Ayşən Sultanova-Məmmədova
**Məhkəmənin adı:** Bakı Şəhəri Yasamal Rayon Məhkəməsi
**Sənədin elektron yüklənmə ünvanı:**
[redacted]

[redacted]

**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

S/N: 067